# Liderin uzaqgörənliyi ilə dirçələn dövlət

**Azərbaycan XX əsrin sonlarında müstəqilliyini bərpa etsə də istər daxildə, istərsə də xaricdə, istiqlalımızı istəməyən güclü qüvvələr var idi. Ermənistanın hərbi təcavüzü daxildəki siyasi qüvvələrin hakimiyyət uğrunda çəkişmələri müstəqil dövlətimizi tamamilə zəiflətmiş, məhv olmaq təhlükəsi yaratmışdı.**

1992-ci ildə AXC-Müsavat cütlüyünün hakimiyyətə gəlməsi ilə Azərbaycanda siyasi-iqtisadi böhran daha da dərinləşmişdi. Hakimiyyətdə olan insanların səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması nəticəsində ölkədə hərc-mərclik baş alıb gedir, regionlarda separatçılıq, parçalanma meyilləri baş qaldırdı. Ölkəmizdə vəziyyət qarşısıalınmaz həddə gəlib çıxmışdı. Hakimiyyətdə yüksək post tutan bir çox məmurlar özlərinə silahlı dəstələr yaratmışdılar. Respublikamızda vətəndaş müharibəsi başlamış, qardaş qırğını törədilmişdi.

AXC-Müsavat cütlüyü yalnız hakimiyyətdə qalmaq haqqında düşünürdü. Xalq isə acınacaqlı vəziyyətə düşmüşdü. Xarici siyasətdə də böyük uğursuzluqlar hökm sürürdü. Qonşu ölkələrlə münasibətlər korlanmış, Azərbaycan dünyadan təcrid olunmuşdu. Dünya dövlətləri ilə iqtisadi-siyasi əlaqələr tamamilə dağıdılmışdı. AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə anarxiya, xaos, özbaşınalıq nəticəsində ölkə iqtisadiyyatı tamamilə çökmüş, torpaqlarımız ermənilər tərəfindən işğal edilmişdi.

Azərbaycan xalqının erməni təcavüzünə son qoyacaq, sosial vəziyyətini yaxşılaşdıracaq, ölkəni vətəndaş müharibəsindən xilas edəcək bir liderə ehtiyacı var idi. Xalq inanırdı ki, ölkəni bu ağır günlərdən qurtaracaq və dövlətin suverenliyini bərpa edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqımız güclü bir dövlət qurmaq üçün dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməyin vacibliyi barədə müdrik qərar verdi. 1993-cü il iyunun 9-da Ulu Öndər xalqın çağırışına səs verərək Bakıya qayıtdı.

1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan dövləti böhrandan xilas oldu. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. İyunun 24-də isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verildi. 15 iyun Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış bir gün oldu - Milli Qurtuluş Günü. 1997-ci ilin iyun ayında Milli Məclis 15 iyun gününü bayram elan etdi. Heydər Əliyevin adı Azərbaycan tarixinə Vətəninin, xalqının xilaskarı kimi yazıldı. Məhz Ulu öndər Heydər Əliyev Azərbaycanda vətəndaş həmrəyliyi yaratdı, sabitliyə, əmin-amanlığa nail oldu. Dahi lider Heydər Əliyevin arzusu Azərbaycan dövlətini bütöv görmək idi. Ümummilli lider Heydər Əliyev məcburi köçkünlərlə görüşlərində işğalda qalan torpaqlara mütləq dönəcəyimizi qətiyyətlə vurğulayır, "Biz bu torpaqlarsız yaşaya bilmərik", - deyirdi.

Azərbaycan xalqının öz liderinə olan tükənməz inamı, Heydər Əliyev şəxsiyyətinin qüdrəti, əzəməti, öz xalqına sevgisi, məhəbbəti nəticəsində bugünkü güclü Azərbaycan dövləti formalaşmışdır.

Ulu öndər Azərbaycanı parçalanmaqdan xilas etdi, ölkədə qayda-qanun bərpa olundu, güclü ordu quruculuğu başlandı. Qanunsuz silahlı birləşmələrin dövlət çevrilişi cəhdlərinə son qoyuldu. İlk parlament seçkiləri keçirildi, Konstitusiya qəbul edildi. Azərbaycanın dünyaya inteqrasiyasına, eləcə də iqtisadi və siyasi islahatlara başlanıldı və çoxpartiyalı sistem yaradıldı. Atəşkəsə nail olunduqdan sonra iqtisadi inkişafın əsası qoyuldu və gələcəkdə böyük Qələbəmizin qazanılması üçün şərait yaradıldı. Neft konkraktlarının imzalanması ilə Azərbaycan dövləti sürətli və dayanıqlı iqtisadi inkişaf yoluna qədəm qoydu. Məhz ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində gördüyü işlərin nəticəsidir ki, Azərbaycan ordusu dünyanın ən güclü 50 ordu sırasında yer alır. Vətən müharibəsində Azərbaycan ordusunun göstərdiyi şücaət, xüsusilə Şuşanın işğaldan azad edilməsi uğrunda həyata keçirilən hərbi əməliyyat bir çox dünya ölkələrinin ordularında öyrənilir. Əminliklə söyləyirik ki, ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın banisi və memarıdır. Ümummilli lider bütün həyatını canından çox sevdiyi Vətəninə, xalqına həsr etmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətimizin inkişafı və tərəqqisi üçün alternativi olmayan Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir. Bu siyasətin nəticəsidir ki, Azərbaycan dünyada öz gücünü və nüfuzunu durmadan artırır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün dünyaya Azərbaycanı qalib dövlət, Azərbaycan xalqını isə qəhrəman xalq kimi tanıtdı.

**Kamilə ƏLİYEVA,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, biologiya elmləri doktoru, professor.**

Respublika .- 2025.- 15 iyun (№ 122).- S.6.